KOMİYM

“Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək” layihəsi çərçivəsində Azərbaycan Respublikası ərazisində 1 000 (bir min) kiçik sahibkarlıq subyekti arasında keçirilmiş üzbəüz sorğunun nəticələri ilə əlaqədar

# HESABAT

Bakı

“Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək” layihəsi çərçivəsində Azərbaycan Respublikası ərazisində 1000 (bir min) kiçik sahibkarlıq subyekti arasında rəy sorğusu

Xülasə

“Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək” layihəsi çərçivəsində Azərbaycan Respublikası ərazisində 1 000 (bir min) kiçik sahibkarlıq subyekti arasında üzbəüz sorğu 07 mart – 17 aprel 2013-cü il tarixində həyata keçirilmişdir.

Sorğunun ərazisi əvvəlcədən razılaşdırılmış, Bakı şəhəri və Azərbaycanın 8 iqtisadi rayonunu əhatə edir. Sorğu keçirilmiş yaşayış məntəqələri və respondentlərin sayı üzrə bölgü aşağıdakı cədvəldə öz əksini tapmışdır.

Cədvəl 1. Sorğu məntəqələri və respondentlərin sayı

| № | İqtisadi rayon | Yaşayış məntəqəsinin adı | Respondentlərin sayı |
|---|---|---|---|
| 1. | | Bakı | 200 |
| 2. | Abşeron | | 80 |
| | | Sumqayıt | 80 |
| 3. | Gəncə-Qazax | | 170 |
| | | Gəncə | 80 |
| | | Şəmkir | 50 |
| | | Daşkəsən | 40 |
| 4. | Şəki-Zaqatala | | 80 |
| | | Şəki | 40 |
| | | Zaqatala | 40 |
| 5. | Lənkəran | | 80 |
| | | Lənkəran | 40 |
| | | Astara | 40 |
| 6. | Quba-Xaçmaz | | 80 |
| | | Quba | 40 |
| | | Xaçmaz | 40 |
| 7. | Aran | | 210 |
| | | Mingəçevir | 40 |
| | | Kürdəmir | 40 |
| | | Salyan | 50 |
| | | Yevlax | 30 |
| | | Şirvan | 50 |
| 8. | Yuxarı Qarabağ | | 40 |
| | | Ağdam | 20 |
| | | Füzuli | 20 |
| 9. | Dağlıq Şirvan | | 60 |
| | | Ağsu | 30 |
| | | Şamaxı | 30 |
| | Cəmi | | 1000 |

Sorğuda iştirak etmiş respondentlərin hüquqi və fiziki şəxs (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs)olmaqla bölgüsü aşağıdakı kimidir:

| | |
|---|---|
| Hüquqi şəxs | – 9,2% |
| Fiziki şəxs | – 90,8% |

Sahibkarlıq subyektlərinin iqtisadiyyatın sahələri üzrə bölgüsü aşağıdakı kimidir:

| | |
|---|---|
| Ticarət | – 30,0% |
| Xidmət | – 30,0% |
| İstehsal | – 20,0% |
| Kənd təsərrüfatı | – 20,0% |

Sorğu qabaqcadan hazırlanmış və layihənin icra qrupu tərəfindən təsdiqlənmiş sorğu anketi əsasında həyata keçirilmişdir. Sorğu anketinin tam mətni Əlavə 1-də öz əksini tapmışdır. Sorğu anketində öz əksini tapmış sualları aşağıdakı kimi qruplaşdırmaq olar:

A. Biznesin mövcud vəziyyəti ilə əlaqədar suallar
B. Dövlət orqanları tərəfindən keçirilən yoxlamalarla əlaqədar suallar
C. Lisenziya alınması ilə əlaqədar suallar
D. Daşınmaz əmlakın qeydiyyatdan keçirilməsi ilə əlaqədar suallar
E. Sahibkarlığa Kömək Milli Fondu ilə əlaqədar suallar
F. Vergi sistemi ilə əlaqədar suallar
G. Gömrük prosedurları ilə əlaqədar suallar
H. Fəaliyyətin dayandırılması ilə əlaqədar suallar
İ. Tikinti işlərinin həyata keçirilməsi üçün alınmalı olan icazələr ilə əlaqədar suallar
L. Qanunvericilik haqqında məlumatlılıq ilə əlaqədar suallar
M. Özəl biznesin inkişaf etdirilməsi ilə əlaqədar suallar
N. Ümumdünya Ticarət Təşkilatı ilə əlaqədar suallar

Sorğunun həyata keçirilməsi, lazımi məlumatların toplanması, sorğu nəticəsində əldə edilmiş məlumatların xüsusi statistik proqram (SPSS) ilə işlənməsi və nəticələrin analizi prosesində yüksəkixtisaslı mütəxəssislər iştirak etmişdir.

# Terminlər

Sayı - sualın cavablandırılmasında iştirak edən respondentlərin cavab variantlarına görə miqdarı

Faiz - eyni cavab variantı seçmiş respondentlərin sayının sorğuda iştirak etmiş respondentlərin ümumi sayında həcmi, faizlə

Real faiz - eyni cavab variantı seçmiş respondentlərin sayının sualı cavablandırmış respondentlərin ümumi sayında xüsusi çəkisi, faizlə

Faiz artımla - sualı cavablandırmış respondentlərin ümumi sayı faizlə və artan yekunla

Cavab verməyənlər - sualın cavablandırılmasında bu və ya digər səbəbdən iştirak etməmiş respondentlər

# RƏY SORĞUSUNUN NƏTICƏLƏRI

1. Biznesiniz üçün mövcud durum necədir?

Sual sorğuda iştirak etmiş 1 000 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Olduqca əlverişli | 75 | 7.5 | 7.5 | 7.5 |
| Əlverişli | 306 | 30.6 | 30.6 | 38.1 |
| Nə yaxşı, nə pis | 489 | 48.9 | 48.9 | 87.0 |
| Əlverişsiz | 93 | 9.3 | 9.3 | 96.3 |
| Olduqca əlverişsiz | 30 | 3.0 | 3.0 | 99.3 |
| Cavab verməyə çətinlik çəkirəm | 7 | 0.7 | 0.7 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Sorğuda iştirak etmiş respondentlərin 48,9%-i və ya 489 respondent biznes üçün mövcud durumun nə yaxşı, nə də pis olduğunu qeyd etmişdir. Növbəti yerdə 30,6%-lə (və ya 306 respondent) "Əlverişli" cavab variantı qərarlaşmışdır. Üçüncü yerdə 9,3%-lə (və ya 93 respondent) "Əverişsiz", dördüncü yerdə 7,5%-lə (və ya 75 respondent) "Olduqca əlverişli" və beşinci yerdə 3,0%-lə (və ya 30 respondent) "Olduqca əlverişsiz" cavab variantları durur. Respondentlərin 0,7%-i və ya 7 respondent bu sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir.

Qeyd etmək lazımdır ki, regional baxımdan "Olduqca əlverişli" cavab variantı daha çox Lənkəran rayonunda (40 respondentdən 60%-i və ya 24 respondent), "Olduqca əlverişsiz" cavab variantı isə Quba rayonunda (40 respondentdən 42,5%-i və ya 17 respondent) seçilmişdir.

2. Sizcə biznes mühitində son 2 ildə dəyişiklik necə olub?

Sualı respondentlərin hamısı cavablandırmışdır (1000 respondent).

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Tam yaxşılığa doğru | 101 | 10.1 | 10.1 | 10.1 |
| Qismən yaxşılığa doğru | 323 | 32.3 | 32.3 | 42.4 |
| Dəyişiklik yoxdur | 410 | 41.0 | 41.0 | 83.4 |
| Qismən pisliyə doğru | 110 | 11.0 | 11.0 | 94.4 |
| Tam pisliyə doğru | 41 | 4.1 | 4.1 | 98.5 |
| Cavab verməyə çətinlik çəkirəm | 15 | 1.5 | 1.5 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Respondentlərin 41,0%-i və ya 410 respondent heç bir dəyişikliyin baş vermədiyini göstərmişlər. 32,3% və ya 323 respondent qismən yaxşılığa doğru dəyişikliklərin baş verdiyini vurğulamışdır. 11,0% və ya 110 respondent "Qismən pisliyə doğru", 10,1% və ya 101 respondent "Tam yaxşlığa doğru", 4,1% və ya 41 respondent "Tam pisliyə doğru" cavab variantlarını seçmişdir. 1,5% və ya 15 respondent cavab verməkdə çətinlik çəkdiyini qeyd etmişdir.

Regionlar arasında biznes mühitinin "Tam yaxşılığa doğru" inkişafı Şirvan şəhərində (50 respondentdən 76%-i və ya 38 respondent), "Tam pisliyə doğru" inkişafı isə Sumqayıt şəhərində (80 respondentdən 37,5%-i və ya 30 respondent) qeydə alınmışdır.

3. Son illərdə biznesiniz genişlənibmi?

Bu sual da sorğuda iştirak etmiş bütün respondentlər (1000 nəfər) tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli, xeyli | 110 | 11.0 | 11.0 | 11.0 |
| Qismən | 412 | 41.2 | 41.2 | 52.2 |
| Nə artmayıb, nə də azalmayıb | 448 | 44.8 | 44.8 | 97.0 |
| Cavab verməyə çətinlik çəkirəm | 30 | 3.0 | 3.0 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Gördüyümüz kimi biznesi dəyişməz qalanlar üstünlük təşkil edir (44,8% və ya 448 respondent). Biznesi qismən genişlənmiş respondentlər 41,2% (və ya 412 respondent), xeyli genişlənmiş respondentlər isə 11,0%-dir (və ya 110 respondent). Sorğuda iştirak edənlərin 3,0%-i və ya 30 respondent bu sualı cavablandırmağa çətinlik çəkdiyini bildirmişdir.

4. Biznes sahəsində fəaliyyətinizi genişləndirməyi planlaşdırırsınızmı?

Sualın cavablandırılmasında 1 000 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli üç ay ərzində | 74 | 7.4 | 7.4 | 7.4 |
| Bəli altı ay ərzində | 70 | 7.0 | 7.0 | 14.4 |
| Bəli bir il ərzində | 195 | 19.5 | 19.5 | 33.9 |
| Xeyr | 446 | 44.6 | 44.6 | 78.5 |
| Cavab verməyə çətinlik çəkirəm | 215 | 21.5 | 21.5 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Sorğuda iştirak etmiş respondentlərin 44,6%-i və ya 446 respondent yaxın zamanlarda biznesini genişləndirməyi planlaşdırmadığını qeyd etmişdir. 21,5% və ya 215 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir. 19,5% və ya 195 respondent isə bir il ərzində biznesini genişləndirmək niyyətində olduğunu qeyd etmişdir. Növbəti yerlərdə 7,4%-lə (və ya

74 respondent) “Bəli, üç ay ərzində” və 7,0%-lə (və ya 70 respondent) “Bəli, altı ay ərzində” cavab variantları durur.

5. Dövlət orqanlarından Sizin ofisə yoxlama məqsədi ilə tez-tezmi gəlirlər?

Sualı 1 000 respondent cavablandırmışdır.




| | Ən azı həftədə bir dəfə | Ən azı ayda bir dəfə | Ən azı yarım ildə bir dəfə | Ən azı ildə bir dəfə | Hələ ki gəlmə-yib |
|---|---|---|---|---|---|
| Vergilər Nazirliyi | 6 | 658 | 166 | 107 | 63 |
| İqtisadi İnkişaf Nazirliyi | 3 | 19 | 70 | 281 | 627 |
| Fövqəladə Hallar Nazirliyi | 4 | 40 | 98 | 339 | 519 |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | 0 | 36 | 171 | 421 | 372 |
| Polis | 33 | 342 | 71 | 134 | 420 |
| Milli Təhlükəsizlik Nazirliyi | 0 | 8 | 113 | 162 | 717 |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 | 24 | 114 | 383 | 473 |
| Rayon İcra Hakimiyyəti | 7 | 11 | 47 | 107 | 828 |
| Sanitar-Epidiomoloji qurumlarından | 15 | 157 | 243 | 353 | 232 |
| Nəqliyyat nazirliyi | 0 | 2 | 1 | 0 | 0 |

Əgər ən azı həftədə bir dəfə gələnlər siyahısında birincilik Polisə məxsusdursa, hələ ki gəlməyənlər siyahısına Rayon İcra Hakimiyyəti başçılıq edir. Aşağıdakı siyahıda dövlət orqanlarının yoxlama məqsədi ilə gəlmələri sualının cavab variantlarına uyğun olaraq birincilik əldə etmiş dövlət orqanlarının adları öz əksini tapmışdır.

1. Ən azı həftədə bir dəfə - Polis (74 cavabdan 44,6%-i və ya 33 respondent)
2. Ən azı ayda bir dəfə - Vergilər Nazirliyi (1 297 cavabdan 50,7%-i və ya 658 respondent)

3. Ən azı yarım ildə bir dəfə - Sanitar-Epidemioloji qurumlardan (1 094 cavabdan 25,9%-i və ya 283 respondent)
4. Ən azı ildə bir dəfə - Ekologiya və Təbii Sərvətlər Nazirliyi (2 287 cavabdan 16,7%-i və ya 383 respondent)
5. Hələ ki gəlməyib – Rayon İcra Hakimiyyəti (4 251 cavabdan 19,5%-i və ya 828 respondent)

Sual üzərindən daha bir reytinq tərtib olunmuşdur. Bu reytinq, dövlət orqanlarının ümumiyyətlə gəlib gəlməməyini özündə əks etdirir. Respondentlərin cavabları aşağıdakı nəticələri əldə etməyə imkan vermişdir (bütün hallarda 1 000 respondentin cavab variantları nəzərə alınmışdır):

1. Vergilər Nazirliyi (93,7% və ya 937 respondent)
2. Sanitar-Epidemioloji qurumlar (76,8% və ya 768 respondent)
3. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi (62,8% və ya 628 respondent)
4. Polis (58,0% və ya 580 respondent)
5. Ekologiya və Təbii Sərvətlər Nazirliyi (52,7% və ya 527 respondent)
6. Fövqəladə Hallar Nazirliyi (48,1% və ya 481 respondent)
7. İqtisadi İnkişaf Nazirliyi (37,3% və ya 373 respondent)
8. Milli Təhlükəsizlik Nazirliyi (28,3% və ya 283 respondent)
9. Rayon İcra Hakimiyyəti (17,2% və ya 172 respondent)
10. Digər: Nəqliyyat Nazirliyi (0,3% və ya 3 respondent)

6. Müşahidələrinizə əsasən, məmurların ziyarəti (tək Sizi deyil, ümumiyyətlə) daha çox hansı məqsəd daşıyır?

Sualın cavablandırılmasında 1 000 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Qanuni yoxlama | 363 | 36.3 | 36.3 | 36.3 |
| Aylıq və ya illik haqq tələbi | 404 | 40.4 | 40.4 | 76.7 |
| Sahibkarın fəaliyyət sahəsini dəyişməsi tələbi | 11 | 1.1 | 1.1 | 77.8 |
| Sahibkarın dükanının müəssisəsinin və s. yerini dəyişməsi | 2 | 0.2 | 0.2 | 78.0 |
| Kimisə işə götürməsi tələbi | 3 | 0.3 | 0.3 | 78.3 |
| İşçilərin əmək haqlarını artırmaq tələbi | 9 | 0.9 | 0.9 | 79.2 |
| Və s | 1 | 0.1 | 0.1 | 79.3 |
| Cavab verməyə çətinlik çəkirəm | 207 | 20.7 | 20.7 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Respondentlərin 36,3%-i və ya 363 respondent məmurların məhz qanuni yoxlama ilə əlaqədar müəssisələri ziyarət etdiyini qeyd etmişdir. Lakin 40,4% və ya 404 respondent bu ziyarətlərin aylıq və ya illik haqq tələbi xarakteri daşıdığını vurğulamışlar. 20,7% və ya 207 respondentin bu

sualı cavablandırmaqda çətinlik çəkdiyini nəzərə almasaq, digər cavab variantları ümumilikdə 2,6% (və ya 26 respondent) səs toplamışdır.

7. 2011-ci ilin əvvəlindən korrupsiyanın azaldılması məqsədilə ölkə rəhbərliyi tərəfindən bir sıra ciddi addımlar atılmışdır. Siz bunun nəticəsində rüşvət tələblərinin azalmasını artıq hiss edirsinizmi?

Sual 1 000 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli, vəziyyət xeyli yaxşılaşıb | 167 | 16.7 | 16.7 | 16.7 |
| Vəziyyət qismən yaxşılaşıb | 526 | 52.6 | 52.6 | 69.3 |
| Dəyişiklik hələ hiss olunmur | 236 | 23.6 | 23.6 | 92.9 |
| Cavab verməyə çətinlik çəkirəm | 71 | 7.1 | 7.1 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Məlum olmuşdur ki, 2011-ci ilin əvvəlindən korrupsiyanın azaldılması məqsədilə ölkə rəhbərliyinin atdığı addımlar öz bəhrəsini verməyə başlamışdır. Belə ki, respondentlərin 52,6%-i və ya 526 respondent vəziyyətin qismən yaxşılaşdığını, 16,7%-i və ya 167 respondent isə xeyli yaxşılaşdığını qeyd etmişdir. Yalnız 23,6% və ya 263 respondent heç bir dəyişiklik baş vermədiyini vurğulamışdır. Sorğuda iştirak etmiş respondentlərin 7,1%-i və ya 71 respondent bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

8. Sizcə sizin rəqiblərinizin qeyri-rəsmi ödənişləri onların xərclərinin neçə faizini təşkil edər?

Sual 1 000 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| 80-100 faizi | 1 | 0.1 | 0.1 | 0.1 |
| 60-80 faizi | 1 | 0.1 | 0.1 | 0.2 |
| 40-60 faizi | 23 | 2.3 | 2.3 | 2.5 |
| 20-40 faizi | 71 | 7.1 | 7.1 | 9.6 |
| 10-20 faizi | 218 | 21.8 | 21.8 | 31.4 |
| 0-10 faizi | 209 | 20.9 | 20.9 | 52.3 |
| Cavab verməyə çətinlik çəkirəm | 477 | 47.7 | 47.7 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Respondentlərin 47,7%-i və ya 477 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir. Digər cavab variantları aşağıdakı kimi sıralanmışdır.

1. Cavab verməyə çətinlik çəkirəm – 47,7% və ya 477 respondent
2. 10-20% – 21,8% və ya 218 respondent

3. 0-10% – 20,9% və ya 209 respondent
4. 20-40% – 7,1% və ya 71 respondent
5. 40-60% – 2,3% və ya 23 respondent
6. 60-80% və 80-100% – hər biri 0,1% və ya 1 respondent

9. Siz işlədiyiniz iqtisadiyyat sektorunda rəqabət şərtlərini necə qiymətləndirirsiniz?

Bu sual da sorğuda iştirak etmiş bütün respondentlər (1000 respondent) tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Tam ədalətlidir | 193 | 19.3 | 19.3 | 19.3 |
| Qismən ədalətlidir | 494 | 49.4 | 49.4 | 68.7 |
| Qismən ədalətsizdir | 199 | 19.9 | 19.9 | 88.6 |
| Tam ədalətsizdir | 39 | 3.9 | 3.9 | 92.5 |
| Cavab verməyə çətinlik çəkirəm | 75 | 7.5 | 7.5 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Respondentlərin yalnız 19,3%-i və ya 193 respondent rəqabət şərtlərini ədalətli sayır. 49,4% və ya 494 respondent rəqabət şərtlərinin qismən ədalətli olduğunu qeyd etmişlər. 19,9% və ya 199 respondent rəqabət şəraitinin qismən ədalətsiz, daha 3,9% cə ya 39 respondent isə tam ədalətsiz olduğunu vurğulamışdır. 7,5% və ya 75 respondent bu sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir.

10. Sizin fəaliyyət praktikanızda lisenziya əldə edilməsi olubmu?

Sual 1 000 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 335 | 33.5 | 33.5 | 33.5 |
| Xeyr | 665 | 66.5 | 66.5 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Araşdırmalar göstərir ki, kiçik sahibkarlıq subyektləri əsasən dərman, spirtli içki və siqaret satışı ilə əlaqədar lisenziyaların alınması üçün müraciət etməli olurlar. Beləliklə, sorğuda iştirak etmiş respondentlərin yalnız 33,5%-i və ya 335 respondent lisenziya almalı olduğunu bildirmişdir.

11. Lisenziya almaq Sizə çətinmi olub?

11-ci sual 10-ci sualda lisenziya almalı olmuş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 14-cü sualdan başlayaraq sorğu davam etdirilmişdir.

Bu sualın cavablandırılmasında 335 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 151 | 15.1 | 45.1 | 45.1 |
| Xeyr | 184 | 18.4 | 54.9 | 100.0 |
| Cəmi | 335 | 33.5 | | |
| Cavab verməyənlər | 665 | 66.5 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Gördüyümüz kimi yalnız 44,5% və ya 151 respondent lisenziya alarkən müəyyən çətinliklərlə üzləşdiyini qeyd etmişdir.

12. Çətinliklər nədən ibarət olub? (bir neçə cavabı seçə bilərsiniz)

12-ci sual sorğunun şərtlərinə uyğun olaraq 11-ci sualda lisenziya alarkən çətinliklərlə üzləşmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 14-cü sualdan başlayaraq davam etdirilmişdir.

Sualın cavablandırılmasında 151 respondent iştirak etmişdir. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 11 respondent 1, 64 respondent 2 və 76 respondent 3 cavab variantı seçmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Lisenziya verən müvafiq dövlət qurumunda süründürməçilik | 106 | 29.0 | | |
| Qaydalar birmənalı və aydın deyil | 21 | 5.7 | | |
| Lisenziya almaq üçün müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması | 60 | 16.4 | | |
| Lisenziyanın alınması üçün çox vaxtın sərf olunması | 51 | 13.9 | | |
| Lisenziya haqqının yuxarı olması | 49 | 13.4 | | |
| Lisensiyanın fəaliyyət müddətinin qısa olması | 79 | 21.6 | | |
| Cəmi | 366 | 100,0 | | |

Lisenziya alarkən çətinliklərlə üzləşmiş respondentlərin 29,0%-i və ya 106 respondent əsas çətinlik kimi süründürməçiliyi qeyd etmişlər. Respondentlərin daha 21,6%-i və ya 79 respondent lisenziyanın fəaliyyət müddətinin qısa olmasından narazılıq bildirmişlər. 16,4% və ya 60 respondent lisenziya almaq üçün müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması, 13,9% və ya 57 respondent lisenziyanın alınması üçün çox vaxtın sərf olunması, 13,4% və ya 49 respondent lisenziya haqqının yuxarı olması cavab variantlarını seçmişdir. Nəhayət, 5,7% və ya 21 respondent qaydaların birmənalı və aydın olmadığından şikayətlənmişdir.

13. Fikrinizcə sahibkarlıq fəaliyyəti üçün lisenziya və ya hər hansı icazə almaq rüşvətsiz mümkündürmü?

Sual 151 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 10 | 1.0 | 6.6 | 6.6 |
| Bəli, lakin asan deyil, çox vaxt və əsəb itirirsən | 100 | 10.0 | 66.2 | 72.8 |
| Xeyr | 41 | 4.1 | 27.2 | 100.0 |
| Cəmi | 151 | 15.1 | | |
| Cavab verməyənlər | 849 | 84.9 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Sualı cavablandırmış respondentlərin mütləq əksəriyyəti (66,2% və ya 100 respondent) rüşvətsiz lisenziya almağın asan olmadığını qeyd etmişlər. 27,2% və ya 41 respondent bunun mümkün olmadığını vurğulamışdır. Yalnız 6,6% və ya 10 respondent rüşvətsiz lisenziya almaq mümkün olduğunu bildirmişdir.

Rüşvətsiz lisenziya almaq mümkün olmadığını bildirmiş respondentlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:



14. Siz daşınmaz əmlakınızı qeydiyyatdan keçirməli olmusunuzmu?

Bu sualın cavablandırılmasında 1 000 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 467 | 46.7 | 46.7 | 46.7 |
| Xeyr | 533 | 53.3 | 53.3 | 100,0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Respondentlərin yalnız 46,7%-i və ya 467 respondent daşınmaz əmlakını qeydiyyatdan keçirdiyini bildirmişdir.

15. Daşınmaz əmlakınızı qeydiyyatdan keçirmək çətinmi olub?

15-ci sual yalnız 14-cü sualda əmlakını qeydiyyatdan keçirmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 18-ci sualdan başlayaraq davam etdirilmişdir.

Sual 467 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 167 | 16.7 | 35,8 | 35,8 |
| Xeyr | 300 | 30.0 | 64,2 | 100,0 |
| Cəmi | 467 | 46.7 | | |
| Cavab verməyənlər | 533 | 53.3 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Əmlakını qeydiyyatdan keçirmiş respondentlərin yalnız 35,8%-i və ya 167 respondent qeydiyyat zamanı müəyyən çətinliklərlə üzləşdiyini qeyd etmişdir.

16. Çətinliklər nədən ibarət olub? (bir neçə cavab seçə bilərsiniz)

16-cı sual sorğunun şərtlərinə uyğun olaraq 15-ci sualda əmlakı qeydiyyatdan keçirərkən çətinliklərlə üzləşmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 18-ci sualdan başlayaraq davam etdirilmişdir.

Sual 167 respondent tərəfindən cavablandırılmışdır. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 265 cavab variantı əldə olunmuşdur: 69 respondent 1, 98 respondent 2 cavab variantı seçmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Müvafiq dövlət qurumunda süründürməçilik | 100 | 37,7 | | |
| Qaydalar birmənalı və aydın deyil | 27 | 10,2 | | |
| Müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması | 137 | 51,7 | | |
| Başqa çətinlik | 1 | 0,4 | | |
| Cəmi | 265 | 100,0 | | |

Əmlakın qeydiyyatdan keçirilməsi zamanı çətinliklərlə üzləşmiş respondentlərin 37,7%-i və ya 100 respondent əsas çətinlik kimi süründürməçiliyi qeyd etmişlər. Respondentlərin daha 51,7%-i və ya 137 respondent çoxlu sayda sənəd toplamaq lazım olduğundan şikayət etmişlər. 10,2% və ya 27 respondent qaydaların birmənalı və aydın olmadığından narazıçılığını bildirmişdir. Nəhayət, 0,4% və ya 1 respondent rüşvət verməli olduğunu vurğulamışdır.

17. Fikrinizcə sahibkarlıq fəaliyyəti üçün daşınmaz əmlakın qeydiyyatdan keçirilməsi rüşvətsiz mümkündürmü?

Sualı 167 respondent cavablandırmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 7 | 0.7 | 4.2 | 4.2 |
| Bəli, lakin asan deyil, çox vaxt və əsəb itirirsən | 124 | 12.4 | 74.3 | 78.5 |
| Xeyr | 36 | 3.6 | 21.6 | 100.0 |
| Cəmi | 167 | 16.7 | | |
| Cavab verməyənlər | 833 | 83.3 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

74,3% və ya 124 respondent əmlakın rüşvətsiz, lakin çox vaxt və əsəb hesabına qeydiyyatdan keçirilməsinin mümkün olduğunu qeyd etmişlər. 21,6% və ya 36 respondent isə bunu rüşvətsiz etmək qeyri-mümkün olduğunu vurğulamışdır. Daha 4,2% və ya 7 respondent əmlakı qeydiyyatdan keçirmək üçün rüşvət tələb olunmadığını bildirmişdir.

Əmlakın rüşvətsiz qeydiyyatdan keçirilməsini qeyd etmiş respondentlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:




18. Siz Sahibkarlığa Kömək Milli Fonduna kredit almaq üçün müraciət etmisinizmi?

Sualın cavablandırılması bütün respondentlər (1 000 respondent) tərəfindən həyata keçirilmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 181 | 18.1 | 18.1 | 18.1 |
| Xeyr | 659 | 65.9 | 65.9 | 84.0 |
| Mən ümumiyyətlə belə fondun varlığı haqqında eşitməmişəm | 160 | 16.0 | 16.0 | 100,0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Sorğuda 1 000 kiçik sahibkarlıq subyektinin iştirak etdiyini və eyni zamanda, sorğu ərazisinin genişliyinə baxmayaraq, respondentlərin yalnız 18,1%-i və ya 181 respondent Sahibkarlığa Kömək Milli Fonduna müraciət etdiyini bildirmişdir. 65,9% və ya 659 respondent bu fonda müraciət etmədiyi, 16,0% və ya 160 respondentin isə belə bir fondu ümumiyyətlə tanımadığı məlum olmuşdur.

19. Siz Fonddan kredit ala bilmisinizmi?

19-cu sual yalnız 18-ci sualda “Bəli” cavab variantını seçmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 22-ci sualdan başlayaraq davam etdirilmişdir. Sualın cavablandırılmasında 181 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 111 | 11,1 | 61,3 | 61,3 |
| Xeyr | 70 | 7,0 | 38,7 | 100,0 |
| Cəmi | 181 | 18,1 | | |
| Cavab verməyənlər | 819 | 81,9 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Fonda müraciət etmiş respondentlərin 61,3%-i və ya 111 respondent kredit aldığını, 38,7% və ya 70 respondent isə ala bilmədiyini qeyd etmişdir.

20. Kredit almaq əlavə xərclər (rüşvət) tələb edibmi?

Sualı 181 respondent cavablandırmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 50 | 5.0 | 27.6 | 27.6 |
| Xeyr | 101 | 10.1 | 55.8 | 83.4 |
| Cavabdan imtina edirəm | 30 | 3.0 | 16.6 | 100.0 |
| Cəmi | 181 | 18.1 | | |
| Cavab verməyənlər | 819 | 81.9 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

O da sevindirici haldır ki, kredit üçün müraciət etmiş sahibkarların mütləq əksəriyyəti (55,8% və ya 101 respondent) rüşvətlə üzləşmədiyini qeyd etmişdir. 27,6% və ya 50 respondent rüşvət tələb olunduğunu bildirdiyi halda, 16,6% və ya 30 respondent cavab verməkdən ümumiyyətlə imtina etmişdir.
Sahibkarlığa Kömək Milli Fondunda rüşvətlə üzləşmiş sahibkarların rayonlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:




21. Kredit almaq nə qədər əlavə xərclər (rüşvət) tələb edir?

21-ci sual yalnız 20-ci sualda "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 22-ci sualdan başlayaraq davam etdirilmişdir.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Kredit məbləğinin 0 - 2 faizi | 12 | 1.2 | 24.0 | 24.0 |
| Kredit məbləğinin 2 - 5 faizi | 14 | 1.4 | 28.0 | 52.0 |
| Kredit məbləğinin 5-10 faizi | 19 | 1.9 | 38.0 | 90.0 |
| Kredit məbləğinin 10-20 faizi | 5 | 0.5 | 10.0 | 100.0 |
| Cəmi | 50 | 5.0 | | |
| Cavab verməyənlər | 950 | 95.0 | | |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Cavablar aşağıdakı kimi sıralanmışdır:

1. Kredit məbləğinin 5-10 faizi – 38,0% və ya 19 respondent
2. Kredit məbləğinin 2-5 faizi – 28,0% və ya 14 respondent
3. Kredit məbləğinin 0-2 faizi – 24,0% və ya 12 respondent
4. Kredit məbləğinin 10-20 faizi – 10,0% və ya 5 respondent

22. Siz özünüzü məmurların özbaşınalığından müdafiə olunmuş hesab edirsinizmi?

Sual 1 000 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 158 | 15.8 | 15.8 | 15.8 |
| Qismən | 602 | 60.2 | 60.2 | 76.0 |
| Xeyr | 138 | 13.8 | 13.8 | 89.8 |
| Cavab verməyə çətinlik çəkirəm | 102 | 10.2 | 10.2 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

Sorğuda iştirak etmiş respondentlərin 60,2%-i və ya 602 respondent məmur özbaşınalığından qismən və 15,8%-i və ya 158 respondent tam müdafiə olunduğunu qeyd etdiyi halda, 13,8% və ya 138 respondent ümumiyyətlə müdafiə olunmadığını vurğulamışdır. 10,2% və ya 102 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir

Özünü məmur özbaşınalığından müdafiə olunmamış hiss edən respondentlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:




23. Fikrinizcə, vergi sistemində nəyi dəyişmək lazımdır?

Sualı 1 000 respondent cavablandırmışdır.

| | Sayı | Faiz | Real Faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Vergi dərəcələrini aşağı salmalı | 352 | 35.2 | 35.2 | 35.2 |

| | | | | |
|---|---|---|---|---|
| Vergilərin sayını azaltmalı | 273 | 27.3 | 27.3 | 62.5 |
| Kadrları dəyişməli | 52 | 5.2 | 5.2 | 67.7 |
| Dəyişkliklərə ehtiyac yoxdur | 55 | 5.5 | 5.5 | 73.2 |
| Vergi ödəyicilərinin hüquqlarının artırılması | 153 | 15.3 | 15.3 | 88.5 |
| Cavab verməyə çətinlik çəkirəm | 115 | 11.5 | 11.5 | 100.0 |
| Cəmi | 1000 | 100.0 | 100.0 | |

35,2% və ya 352 cavab variantı vergi dərəcələrinin aşağı salınmasını istəmişdir. 27,3% və ya 273 respondent vergilərin sayını azaltmağı təklif etmişdir. Daha 15,3% və ya 153 respondent vergi ödəyicilərinin hüquqlarının artırılmasını istəmişdir. 11,5% və ya 115 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir. 5,5% və ya 55 respondent dəyişikliklərə ehtiyac olmadığını, 5,2% və ya 52 respondent isə kadrları dəyişməyi qeyd etmişdir.

